VAQİF YUSİFLİ,
filologiya elmləri doktoru

Nəsimi və nəsimilik haqqında poetik həqiqətlər

Dahi şairimiz İmadəddin Nəsiminin həyatı, şəxsiyyəti və ölməzliyi barədə çoxlu bədii əsərlər yazılıb, tədqiqatlar qələmə alınıb. İsa Muğannanın "Məhşər" romanı, Qabilin "Nəsimi", Rəsul Rzanın "Son gecə", Ələkbər Salahzadənin "Od heykəli" poemaları, Əli Kərimin "Şəhidliyin zirvəsi" şeiri, Bəxtiyar Vahabzadənin "Fəryad" pyesi və digər şairlərin onlarla şeirləri bizi Nəsimi dünyasına aparır, bu dahi şəxsiyyətin əsrləri adlayıb keçən ideyalarına məhrəm oluruq. Dərk edirik ki, Nəsimi tarixən bizdən uzaq olsa da, ruhən çağdaşımızdır. O, öz şeirləri və ideyaları ilə məhz bugünün şairidir. Çünki dünya, zaman nə qədər dəyişsə də, yeniləşsə də, Nəsiminin bütün dünyaya və zamanlara sığmayan fikirləri diridir.

Nəsimiyə həsr olunan bədiyyatlar sırasına Sayman Aruzun "Nəsimi" mənzum pyesini də daxil etmək olar. Sayman Aruz çox bilgili bir insandır, o, həm şeirlər, nəsr əsərləri yazır, həm də elmi tədqiqatla məşğul olur. Əruz vəznini, onun incəliklərini yaxşı bilir, klassik ədəbiyyatı dərindən mənimsəyib və "Məclisi-üns" verilişlərində bunu əyani surətdə sübut edir. Nəsiminin 650 illiyi ilə əlaqədar televizayda onun qəzəllərinin (hətta ən çətin) şərhini vıerir. Bir sözlə, Sayman Aruzu bir çoxlarından fərqli olaraq nəsimişünas hesab etmək olar.

"Nəsimi" mənzum pyesi də o,bu bilginin və təbii ki, Nəsimiyə olan böyük sevginin sayəsində qələmə alınmışdır.

Əsərdə məlum tarixi həqiqətlər (Nəsiminin hürufizm ideyaları, öz müəllimi Nəimiyə olan sevgisi, onun fanatizmlə, cəhalətlə mübarizəsi, edamı) heç də kölgədə qalmamışdır. Lakin bütün bunlar zahiri fon təşkil edir. Sayman Aruz təkcə Nəsiminin şəxsiyyəti haqda söz açmır, nəsimiliyi də pyesinin qayəsinə çevirir. Demək olar ki, biz orta əsrlər Şərq-Azərbaycan bədii-fəlsəfi fikrinin nəhəngləri ilə tanış oluruq. Həllac Mənsur, Babək, Şəmsi Təbrizi,Şibli, Şah İsmayıl Xətai, Şeyx Heydər obrazları da pyesdə iştirak edir. Nədən? sualını veririk. Çünki nəsimiliyin kökləri Mənsur Həllacdan başlayır (Nəsimi öz şeirlərində tez-tez Həllacın adını çəkir,i "ənəlhəq" ideyası Həllacdan başlayır), Babək ona göhə əsərə daxil edilib ki, Nəsiminin və Babəkin edamı da demək olar ki, eyni həqiqəti ifadə edir-əqidə yolunda diri-diri soyulmaq), Şəmsi Təbrizinin də öz fikir aləmi ilə Nəsimiyə nə dərəcədə doğma olduğu da məlumdur, nəhayət. Nəsiminin özündən sonra bütöv Azərbaycan şairlərinə təsiri də danılmazdır (o cümlədən Şah İsmayıl Xətaiyə). Deməli, Nəsimi var olmamışdan öncə nəsimilik var imiş. Nədir Nəsimilik? Gəlin, əsərə müraciət edək.

Nəsiminin bütün yaradıcılığında EŞQ məfhumu mənim fikrimcə, birinci sırada durur. Allaha, Tanrıya eşqdən tutmuş insanasevgiliyə eşqə qədər. Nəsimi deyir:

Eşq çörək vermir cahana, sevgilim,
Güc verir o cismi-cana, afətim.
Su soruşmur dinini, imanını,
Heç təmannasız dirildir canını.
İnsanın Allahlığı eşq ilədir,

Yoxsa fərqi bir bimar ilə nədir?
Ay gecəni eşq ilə nurlandırır,
Dünyanı eşq ilə şəms canlandırır.
Eşq olsa xəlq içində, xəlq var,
Olmasa gər, xəlq olar ibni bimar.
Eşq rəhbər, eşq mövla, eşq pir,
Karvanın baş sarvanı eşqdir.

Bu misralar dahi Füzulinin

Eşqdir hər iki dünyaya ziynət,
Eşq ilə dolanır bütün təbiət.
Eşqsiz məqsədə yetişmək olmaz
Eşq ilə tapılar dühlük, həqiqət.

Bənzərlik var. Nəsimi də eşqə dair bu anlamda xeyli fikirlər söyləyib. Füzulidə də, Nəsimidə də, onların bilicisi Sayman Aruzda da Eşq ən yüksçək bir nemət kimi təsdiq olunur. Adi- hissi eşq kamil deyildir, intellektual, idraki eşq kamil və safdfr. S.Aruz da Nəsimi eşqini məhz bu cür dərk edir.

Allaha eşq isə təbii ki, Nəsiminin eşq fəlsəfəsində aparıcıdır.Cəhalət dünyasının vaizləri, zahidləri Allahı yerdən göyə qaldırırdılar, dini mistikanın təlimi də elə bu idi. Amma nəsimilər Allahı göydən yerə endirdilər, insanda tapdılar onu. Pyesin bir yerində (4-cü şəkildə) Zavhid, Şah və Nəsimi arasında kəskin dialoq gedir. Şah və Zahid Nəsiminin "Allah insandadır" fikrinə müxalif çıxırlar. Şah deyir ki: "Xəlqə sirri-həq lazım deyil". Nəsimi isə İnsanı Allahın təzahürü, onu varlığında yaşadan xəlq hesab edir:

Hər "mən" oxşar bir suyun damlasına,
Birləşərsə qovuşar dəryasına.

Burada xaliqlə məxluqatın əslində mütləq bir vəhdət, bölünməz bir bütövlük təşkil etdiyi məlum olur. Bütün yaranmışlar yaradana qovuşmalıdır, bütün törəmələr öz kökünə qayıtmalıdır. Allaha gedən yol, şəriət, təriqət, mərifət və həqiqət kimi mərhələlərdən keçir. Nəsimi də məhz bu mənada İnsanı yüksəldir.

Küfrü də insan yaratdı, dini də,
Cəbrayılı, Əzraili, cinni də.
İnsanın zəfi yaratdı Allahı,
İnsanın ruhundadır insan şahı.
Quran Allahın kəlamı olsa da,
İnsan ilə həm var oldu dünyada.
Hər bir insan bir məsciddir, pirdir,
Aşiq insan Allaha təfsirdir.

Şah, Zahid və Nəsimi arasında dialoqda kifayət qədər mənəvi qarşıdurma (daha doğrusu, iki dünyagörüşüynün əksllikləri) meydana çıxır. Şah Nəsiminim ölümlə, edamla hədələyir, amma Nəsimi üçün ölüm və edam qorxusu yox O, yenə Eşqlə bağlı kəlamlarına qayıdır:

Mən Nəsimiyəm, təxtim eşqdir, tacım eşq,
Məsti eşqəm, dərdim eşq, əlacım eşq.
Varsa gər eşq, mən varam, bu dünya da,
Mən varamsa, eşq də vardır dünyada.

Nəsiminin həbsxanada Şəmsi Təbrizi ilə xəyali dialoqu da pyesin fəlsəfi tonunu artırır. Onların fikirlərində müəyyən fərqli məqamlar nəzərə çarpsa da, əslində, yolları birdir. Şəmsi Təbrizi də deyir ki: "Dindən hündürdür bizim irfanımız, Yoğrulubdur eşqdən imanımız". Şəmsi Təbrizi Nəsimiyə deyir ki: "Söylə nəhnüylhəqq", "ənəlhəqdən qorun, Özünü mütləq sanan xəlqdən qorun". Nəsimisə: "İnkar etmir ki, "ənəlhəqq" "biz"ləri- cavabını verir və Şərqin bu iki dahisi arasında fikir ayrılığı iki fəlsəfənin izharı kimi səslənir. Nəsimi deyir:

Səndəki irfanda din var, Şəmsi-can,
Məndəki irfanda insanü cahan.

Pyesdə Nəsiminin edam səhnəsi, edamdan sonrakı üç gün əzabın, işgəncənin yox, öz ideyalarına sadiqliyin məntiqi kimi səslənir. Pyes boyu Nəsiminin allahsızlıfqda təqsirləndirən Zahid sevinir, cəllada afərinlər söyləyir. Bu səhnədə Babək, Şibli, Həllac Mənsur, Nəimi,Şəms Təbrizi də xəyali şəkildə iştirak edirlər.. Nəsimi parçalanır, əli, ayağı kəsilir, amma ruhu nəsimilərə paylanır. Pyesin sonu azərbaycançılıq ideyasını səsləndirir:

Birləşərsə gər bu cismü can yenə,
Onda doğar Azərbaycan yenə.

Əlbəttə, bu ideya Nəsimlərin əsrlər boyu apardığı azadlıq mübarizələrinin məntiqidir və bu ideya müstəqil Azərbaycan respublikasının var olması deməkdir.

Sayman Aruzun Nəsimiyə həsr etdiyi bu pyesin də qayəsi bu idi.

Son söz: S.Aruzun bu pyesi tamaşaya qoyularsa, onu təzədən, mükəmməl şəkildə işləmək olar.

Ədalət 2019.- 21 dekabr.- S.15.